**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində oktyabrın 6-dan 10-dək keçirilən VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində oktyabrın 8-də Respublika Xatirə Kitabı Redaksiyasının (RXK) nəşr etdiyi "İgid ömrü" kitabının təqdimat mərasimi keçirildi.**

# Xatirə Kitabı Redaksiyasının daha bir uğuru...

***Nəzirməmməd Zöhrablı:*** *"Füzuli Rüstəmov bəlkə də yeganə Milli Qəhrəmandır ki..."*

***Nəzakət Məmmədova:*** *"Mən o görüşdə Fiqurə xanıma söz verdim ki..."*

***Fiqurə Rüstəmova:*** *"Ermənilərin separatçı hərəkətləri, əsassız ərazi iddiaları qarşısında hamı kimi qardaşım Füzuli Rüstəmov da ayağa qalxdı"*





"İgir ömrü" Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmovun vətənpərvərlik dolu qısa və mənalı həyatından, döyüş yolundan və misilsiz qəhrəmanlığından bəhs edir. Tanınmış jurnalist-publisist Nəzirməmməd Zöhrablının yüksək peşəkarlıqla, incəliklə və həssaslıqla qələmə aldığı "İgid ömrü" kitabının başqa kitablardan fərqi böyükdür. O mənada ki, N.Zöhrablının qəhrəmanı, müəllifin özü demişkən, başqa Milli Qəhrəmanlarımızdan fəqrli bir insan olub. Füzuli Salah Rüstəmov Xocalının düşməndən müdafiəsində müstəsna qəhrəmanlıqlar göstərib və xocalıların xilası uğrunda canından keçib...

Heç şübhəsiz, Vətənimizin ərazi bütövlüyü yolunda şəhid olan hər bir Vətən övladının ruhu xalqımız üçün əzizdir, bu torpağın üstünə tökülən şəhid qanı müqəddəsdir. Yaxşı bir deyim var: "Torpaq su ilə qarışanda palçıq, qan ilə qarışanda Vətən olur".

"İgid ömrü"nün müəllifi Nəzirməmməd Zöhrablı Milli Qəhrəman haqqında yazdığı kitabın necə ərsəyə gəldiyindən danışdı. "Doğru deyirlər ki, təsadüflər olmur, bütün təsadüflər əlahəzrət zərurətin bətnindən doğulur. Xatirə Kitabı redaksiyasının baş redaktoru Nəzakət Məmmədovanın təsadüfən əslən Xocalıdan olan Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmovun bacısı Fiqurə Rüstəmova ilə görüşməsi bu kitabın ərsəyə gəlməsinə bir vəsilə oldu. Biz Füzuli Rüstəmov haqqında araşdırma apararkən məlum oldu ki, o bütün Milli Qəhrəmanlardan fərqli bir insandır. Füzuli Rüstəmov heç bir mübaliğəyə, heç bir şişirtməyə ehtiyacı olmayan Milli Qəhrəmandı. Füzuli Rüstəmov bəlkə də yeganə Milli Qəhrəmandır ki, Xocalı camaatı ellikcə ayağa qalxıb ona Milli Qəhrəman adının verilməsini tələb edib. Füzulinin həyatda yeganə bir bacısı qalıb..."

F.Rüstəmovun qəlbən Xocalıya, Azərbaycana bağlı olduğunu vurğulayan N.Zöhrablı qeyd etdi ki, kitabın yazılması gecikdiyi üçün çapı da gecikib, amma bu gecikmə kitaba ziyan vurmayıb, əksinə, onun yeni səhifələrinin yaranmasına səbəb olub. Zəfərlə başa çatan 44 günlük müharibənin qələbə sorağı da F.Rüstəmov haqqında yazdığı kitabın səhifələrində canlandırılıb: "Füzulinin ən böyük arzusu olan Qarabağın azadlığı bu kitabın yazılması məqamına düşdü və biz də bunu həvəslə kitabımıza saldıq. Nəzakət xanım dedi ki, bu kitaba daxil edilsin. Bu bizim üçün böyük xoşbəxlikdi, bu məqamı kitabın redaktoru Əlirza Xələfli də xüsusi həvəslə qeyd edib. Füzulinin arzularının doğulması bu kitabda öz əksini tapdı. Xatirə Kitabı redaksiyası bütün şəhidlərimizi tanıtmaqla məşğuldur".

N.Zöhrablı qeyd etdi ki, Milli Qəhrəmanların həyatı, döyüş yolu araşdırılmalı və kitablaşdırılmalıdır, çünki onların döyüş yolu Azərbaycanın qəhrəmanlıq salnaməsidir. Azərbaycan xalqının yaddaş etalonunda bu mövzuda yazılan kitabların xüsusi yeri olduğunu deyən N.Zöhrablı bildirdi ki, bunlar dərsliklərdə, filimlərdə və sairdə də öz əksini daha parlaq şəkildə tapacaq.

Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova isə bildirdi ki, Xatirə Kitabı redaksiyası 22 ildir şəhdirlərimizin xatirəsini kitablaşdırmaqla, onlara ədəbi abidə qoymaq işi ilə məşuldur. N.Məmmədova çıxışında qeyd etdi ki, Milli Qəhrəman Füzuli Rüstəmova həsr edilən "İgid ömrü" sənədli povesti rəhbərlik etdiyi redaksiya ilə "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından çap olunan növbəti kitabdır. "Bu seriyadan nəşrə hazırladığımız və bu gün sizə təqdim etdiyimiz növbəti kitabımız Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmovun həyat və döyüş yoluna həsr olunub. Tədbirlərdən birində təsadüf nəticəsində Füzuli Rüstəmovun bacısı Fiqurə Rüstəmova ilə tanış olduq. O mənə dedi ki, hamı haqqında yazılır, amma mənim qardaşım yada düşmür, o qeyri-adi qəhrəman idi. Ona Milli Qəhrəman adı verilməsini xocalılılar tələb edib... Bu kitabı oxuyanda siz də Füzulinin keçdiyi qəhrəmanlıq yolu ilə tanış olacaqsınız. Füzuli Xocalıdan öz ailəsini də, qonşularını da çıxarmışdı, amma bununla kifayətlənməyib, daha çox insanı çıxarmaq üçün yenə geri qayıdırdı. Deyirdi ki, hələ kənddə qalanlar var, arvad-uşaq, qız-gəlin orada qalıb, mən onları da xilas etməliyəm, onlar ermənilərin əlinə düşməməlidir. İnanın ki, qəhrəman Füzuli bilə-bilə özünü ölümün pəncəsinə atdı, o, insanları xilas edərkən şəhid olacağını bilirdi. Amma yolundan dönmədi, son nəfəsinə qədər insanları xilas etdi...

Mən o görüşdə Fiqurə xanıma söz verdim ki, Respublika Xatirə Kitabı ilə "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından çap olunan növbəti kitablardan birini Füzuli Rüstəmova həsr edəcəyik. Fiqurə xanım demişdi ki, qardaşım Milli Qəhrəman olsa da, onun haqqında hələ bir qəzet yazısı da olmayıb. Bu kitabın çap edilməsi Fiqurə xanımın ən böyük arzusu idi və kitab da çap olundu. Bu kitaba Nəzirməmməd Zöhrablı ürək qoydu, can qoydu, xəstələnməyinə baxmayaraq bu kitabı başa çatdırdı, Füzulinin ürəyindən keçən o böyük qələbəni kitabda ifadə edə bildi".

Milli Qəhrəman Füzuli Rüstəmovun bacısı Fiqurə Rüstəmovanın çıxışı isə tədbir iştirakçılarını göz yaşına boğdu. Əvvəlcə Xatirə Kitabı Redaksiyasının rəhbərinə, kollektivinə və kitabın müəllifinə öz təşəkkürünü bildirdi. Həyatda yeganə qardaşını itirən Fiqurə xanımın titrək və həyəcanlı səsindən böyük ağrı ilə süzülən sözlərin içinə bir çimdik sevinc də qatılmışdı. İşıqlı dünyada qəhrəman adından başqa heç bir nişanəsi qalmayan, bəy gərdəyi qurulmayan, toyu çalınmayan qardaşının adına



bağışlanan "İgid ömrü" kitabının çapı Fiqurə xanıma sanki bir təsəllidir, kitablaşan, dastanlaşan qəhrəman Füzulinin ətrini artıq o kitabdan alar bacısı. F.Rüstəmovun 26 illik ömür yolunun bu kitabda ifadə olunduğunu deyən F.Rüstəmova bildirdi ki, qardaşı haqqında danışmaq onun üçün çox çətindi. "Qardaşımın iki adı vardı, el arasında ona Zamin deyirdilər, sənəddə isə adı Füzuli yazılırdı. Mən onun həyat yolundan danışmaq istəyəm. Biz çox kiçik yaşlarımızda valideynlərimizi itirmişik, yetim olmuşuq və bizi ana nənə-babamız öz himayəsinə götürüb. Xalamız Səkinə ana paltarını geyinib bizə analıq edib (Füzuli Rüstəmovu böyüdən qəhrəman qadın Səkinə ana da tədbirdə idi. Göz yaşları bulaq kimi qaynayırdı ağsaçlı, ağüzlü ananın. Füzulisindən və Xocalısından ayrı düşmək ananın ürəyində dərin yaralar açıb. Biz hamımız ağsaçlı qəhrəman ananın, Füzuli kimi oğul böyüdən bu nur çöhrəli, möhtəşəm qadının ürəyindən öpürük-İ.S ). Biz yetim olmuşuq, ata-anamız olmayıb. Qardaşım orta məktəbi bitirdikdən sonra Xocalı şəhərində sovxozda işləyib, sonra isə Sovet ordusunda xidmət edib, əsgərliyini başa vurandan sonra Xocalıya qayıdıb. 1988-ci ilin yanvar ayının 3-dən ermənilər "Dağlıq Qarabağ" məsələsini qaldırmağa və Qarabağı, Xankəndini Ermənistana birlişdirmək barədə separatçı çağırışlar etməyə başladılar. Ermənilərin separatçı hərəkətləri, əsassız ərazi iddiaları qarşısında hamı kimi qardaşım Füzuli Rüstəmov da ayağa qalxdı. O zaman silah da yox idi, camaat balta, yaba, ling, bel götürüb ermənilərə müqavimət göstərirdi".

F.Rüstəmova qardaşının xocalılıların xilasında göstərdiyi misilsiz qəhrəmanlıqlardan danışdı. O dedi ki, qardaşı Xocalının müdafiəsi üçün Ağdamdan atla silah daşıyıb camaatı silahlandırırdı. Qardaşının bir neçə dəfə xocalılıları Xocalıdan çıxardığını deyən Fiqurə xanım növbəti qayıdışında Füzulinin boynundan vurulduğunu qeyd etdi. Qəhrəman qardaşının yaralı halda vurulduğu ərazidən çıxarıldığını deyən F.Rüstəmova onun həyatını xilas etməyin mümkün olmadığını bildirdi.

Atasız-anasız böyüyən Füzuli-Zamin Xocalının şərəfini, xocalılıların namusunu-qeyrətini qoruyan, bunun üçün özünü ölümə atan bir Vətən oğludur. O, 50 milyonluq Azərbaycan xalqının qürur duyduğu oğuldur. Yetim və öksüz böyüsə də, Milli Qəhrəmanımız Füzuli Rüstəmov Azərbaycan boyda vüqarlı bir ananın oğlu kimi əbədiyyən yaşayacaq...Füzulinin ruhu şaddı, çünki Ali Baş Komandanımızın rəhbərliyi ilə müzəffər Ordumuz torpaqlarımızı işğaldan azad edib, Füzuli kimi oğulların ruhu da azaddır, şaddır...

Azad ruhun şad olsun, igid ömrü yaşayan Milli Qəhrəman!

***İradə SARIYEVA***